# Beynəlxalq Teatr İnstitutu ITI

**Teatr üzrə dünya təşkilatı**

## 27 mart 2022-ci il Beynəlxalq Teatr Günü ilə bağlı mraciət:
## Müəllif: Piter Sellars, ABŞ, teatr, opera və  festival rejissoru

Azərbaycan dili

**Beynəlxalq Teatr İnstitutu**
**Peter Sellarsın Beynəlxalq Teatr Günü ilə bağlı müraciəti, 27 mart 2022-ci il.**

Əziz dostlar,

Dünya saatbasaat, dəqiqəbədəqiqə xəbər reportajlarının gündəlik lentindən asılıb qaldığı bir vaxtda hamımızı – bütün yaradıcı insanları epik zamanın, epik dəyişikliyin, epik şüurun, epik fikrin, epik baxışın müvafiq əhatə dairəsinə, sferasına dəvət edə bilərəmmi? Biz bəşər tarixinin epik dövründə yaşayırıq və insanların özlərinə, bir-birilərinə və dünyaya münasibətlərində baş verən dərin və ardıcıl dəyişikliklər, demək olar ki, bizim qavrama, dilə gətirmə və ifadə etmə qabiliyyətimizdən kənardadır.

Biz 24 saatlıq xəbər dövriyyəsində yaşamırıq, biz zamanın son həddində yaşayırıq. Qəzetlər və media tamamilə acizdir və yaşadıqlarımızı ifadə etməyə qadir deyil.

Hansı dil, hansı əməllər və obrazlar bizə bu gün yaşadığımız təlatümləri və parçalanmaları anlamaq üçün imkan yarada bilər? Və biz həyatımızdakı yaşantıların mənasını reportaj kimi yox, olduğu kimi necə ifadə edə bilərik?
Teatr yaşamın bədii formasıdır.

Ucsuz-bucaqsız mətbuat kampaniyalarının, saxta təcrübələrin, dəhşətli proqnozlaşdırmaların mənganəsində boğulan dünyada rəqəmləri sonsuz təkrarlamaqdan qurtularaq birgə həyatın, vahid ekosistemin, dostluğun müqəddəsliyini və hüdudsuzluğunu, naməlum səmadakı işığın keyfiyyətini hiss etmək həddinə necə çata bilərik?

Covid-19 iki il insanların hisslərini dumanlandırdı, ömürlərini qısaltdı, əlaqələrini qırdı və bizi insan yaşamının dibinə yuvarlatdı.

Bu illər ərzində hansı toxumları əkməyə, yaxud yenidən becərməyə ehtiyac var və hansı həddən artıq

böyümüş yabanı növləri tam və birdəfəlik kökündən qoparmaq lazımdır? Nə qədər insan son həddə çatıb. İrrasional və gözlənilməz şəkildə nə qədər zorakılıq törədilir. Nə qədər oturuşmuş sistemlər davamlı qəddarlıq törədən strukturlar kimi üzə çıxıb.

Hanı bizim anım mərasimlərimiz? Biz nəyi xatırlamalıyıq? Əvvəllər heç vaxt atmadığımız addımları yoxlamağa və yenidən anlamağa imkan verən ayinlər hansılardır?

Epik baxış, məqsəd, bərpa, sağalma və qayğı teatrının yeni rituallara ehtiyacı var. Biz əylənməyə ehtiyac duymuruq. Bizim cəm olmağa ehtiyacımız var. Vahid məkanı bölüşməyə və həmin ümumi məkanı yaratmağa ehtiyac duyuruq. Bizim təhlükəsiz məkana, diqqətlə dinlənməyə və bərabərliyə ehtiyacımız var.

Teatr - Yer üzündə insanlar, tanrılar, bitkilər, heyvanlar, yağış damcıları, göz yaşları arasında bərabərlik və yeni həyat məkanı yaratmaqdır. Bərabərlik və qarşılıqlı anlaşma məkanı daxili gözəllik vasitəsilə yaradılır, təhlükə, təvazökarlq, müdriklik, fəaliyyət və dözümün qarşılıqlı təsiri ilə qorunur.

Avatamsaka Sutrada Budda insan həyatında böyük səbrin 10 növünü sadalayır. Onların ən önəmlilərindən biri "hər şeyi xəyal kimi qavramaq səbri"dir. Teatr həmişə bu dünyadakı həyatı ilğım kimi təqdim edir ki, bu da bizə illüziyalardan, aldanışlardan, görməzlik və inkardan keçərək, aydınlıq və qüvvə əldə etməyə imkan verir.

Biz öz baxdığımızdan və baxış bucağımızdan o qədər əminik ki, alternativ reallıqları, yeni imkanları, fərqli yanaşmaları, gizli münasibətləri, zamanın hüdudlarından kənar əlaqələri görmək və duymaq qabiliyyətinə malik deyilik.

İndi təfəkkürümüzü, hisslərimizi, təxəyyülümüzü, keçmişimizi və gələcəyimizi kökündən dəyişmək vaxtıdır. Bunu təcrid olunmuş, təkbaşına işləyən adamlar edə bilməz. Bu işi biz birgə görməliyik. Teatr - bunu birgə etməyə dəvətdir.

Sizə zəhmətinizə görə dərin təşəkkürümü bildirirəm.
Piter Sellars
**Tərcümə edən:** Elçin Cəfərov, Tərlan Rəsulov, Minaxanım Qurbanova